AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 07.09.2016 |
| Qeydiyyat nömrəsi | 1617050000011400 |
| Adı | Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 23.09.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.030.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609071400 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 22.09.2016 |

"2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin 17-ci hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyası

QƏRARA ALIR:

1. "Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi Qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).

4. "Elektron auditin keçirilməsi Qaydaları" təsdiq edilsin (4 nömrəli əlavə).

5. “Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları” təsdiq edilsin (5 nömrəli əlavə).

6. “Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası” təsdiq edilsin (6 nömrəli əlavə).

7. “Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları” təsdiq edilsin (7 nömrəli əlavə).

8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

8.1. 16 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.2. 17 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.3. 20 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.4. 21 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur).

9. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq baş idarəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət baş idarəsinə tapşırılsın ki, bu Qərarla təsdiq edilmiş normativ hüquqi aktların Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

11. Bu Kollegiya Qərarının 4-cü hissəsi ilə təsdiq edilmiş “Elektron auditin keçirilməsi Qaydaları” 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

Vergilər naziri,
1-ci dərəcəli dövlət vergi xidməti müşaviri — Fazil Məmmədov

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 1617050000011400 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 4

Elektron auditin keçirilməsi

QAYDALARI

1. Ümumi müddəalar

1.1. "Elektron auditin keçirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli 2257 nömrəli Sərəncamının 2.6-cı bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qaydaların hazırlanmasında məqsəd vergi inzibatçılığını təkmilləşdirmək, mütərəqqi informasiya texnologiyalarının tətbiqi yolu ilə elektron auditin səmərəliliyini yüksəltməkdən ibarətdir.

1.3. Bu Qaydaların əsasında qəbul edilmiş qərarlar Vergi Məcəlləsinin və vergi qanunvericiliyi ilə bağlı digər normativ hüquqi aktların müddəalarına zidd olmamalıdır.

1.4. Bu Qaydalarda müəyyən edilən elektron auditin həyata keçirilməsi ilə bağlı qəbul edilən qərarlar, tərtib edilən aktlar, protokollar və sorğu anketi Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 1617050000011400 nömrəli Qərarı ilə təsdiq edilmiş "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları"na uyğun olaraq tərtib edilir.

1.5. Vergi ödəyicisi tərəfindən elektron auditin keçirilməsi üçün təqdim olunan məlumatlar gücləndirilmiş elektron imza ilə təsdiq edilir.

1.6. Bu Qaydalarda nəzərdə tutulmayan proseduralar Vergi Məcəlləsi və Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 1617050000011400 nömrəli Qərarı ilə təsdiq edilmiş "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları"na uyğun olaraq aparılır.

2. Əsas anlayışlar

2.0. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.0.1. Elektron audit - vergi ödəyicisinin elektron formatda saxlanılan mühasibat məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla həyata keçirilən vergi yoxlaması;

2.0.2. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (bundan sonra AVİS) - vahid məlumat bazasının və tətbiqi proqram təminatının çalışdığı mərkəzi serverlərdən, istifadəçilərin və vergi ödəyicilərinin mərkəzi serverlərə bağlanaraq işləməsini təmin edən şəbəkə avadanlıqlarından ibarət iri proqram-texniki kompleksi olmaqla mərkəzi bazada toplanmış məlumatları emal edərək müxtəlif hesabatların alınmasına, təhlillərin aparılmasına imkan verən sistem.

## 3. Elektron auditin təşkili prinsipləri

3.1. Elektron audit Vergi Məcəlləsinin müddəalarına müvafiq olaraq vergi orqanının qərarına əsasən həyata keçirilir.

3.2. Elektron audit Vergi Məcəlləsi ilə müəyyən edilən müddətlərə uyğun olaraq həyata keçirilir.

3.3. Elektron audit keçirilən zaman yoxlayıcılar Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergi orqanlarının hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir.

## 4. Elektron auditin mərhələləri

4.0. Elektron audit aşağıdakı mərhələlərdən ibarətdir:

4.0.1. Elektron audit keçirilməli olan vergi ödəyicilərinin müəyyən edilməsi;

4.0.2. Elektron auditin keçirilməsi;

4.0.3. Elektron auditin nəticələrinin rəsmiləşdirilməsi.

## 5. Elektron audit keçirilməli olan vergi ödəyicilərinin müəyyən edilməsi

5.1. Elektron audit mühasibat məlumatları elektron formatda saxlanılan və ya həmin məlumatlara vergi orqanları üçün məsafədən çıxış imkanı yaradan vergi ödəyicilərində keçirilir.

5.2. Elektron auditin keçirilməsi zamanı aşağıda qeyd olunan vergi ödəyicilərinə üstünlük verilir:

5.2.1. Karbohidrogen fəaliyyətini həyata keçirən vergi ödəyicilərinə;

5.2.2. Müxtəlif ölkələrdə filialları və nümayəndəlikləri olan vergi ödəyicilərinə;

5.2.3. Elektron ticarət üzrə fəaliyyət göstərən vergi ödəyicilərinə;

5.2.4. Bank, sığorta və lizinq sahəsi üzrə fəaliyyət göstərən vergi ödəyicilərinə;

5.2.5. Prosessinq mərkəzlərinə;

5.2.6. Telekommunikasiya sahəsində fəaliyyət göstərən vergi ödəyicilərinə;

5.2.7. İri vergi ödəyicilərinə;

5.2.8. Əməliyyatlarını nağdsız qaydada həyata keçirən digər vergi ödəyicilərinə;

5.2.9. Daha əvvəl elektron audit keçirilmiş vergi ödəyicilərinə.

## 6. Elektron auditin keçirilməsi

6.1. Elektron audit başlandıqdan sonra 15 gün ərzində aşağıdakı proseslər həyata keçirilməlidir:

6.1.1. Vergi ödəyicisinin fəaliyyəti barədə vergi orqanında olan məlumatların araşdırılması və analitik cədvəllərin hazırlanması (illər üzrə vergi bəyannamələrinin göstəricilərindən istifadə etməklə ödəyicilərinin iqtisadi göstəricilərinin dinamikasının təhlili, əvvəlki vergi yoxlaması aktlarının öyrənilməsi və vergi ödəyicisi üçün xarakterik olan vergidənyayınma istiqamətlərinin müəyyən edilməsi);

6.1.2. Vergi ödəyicisi ilə müsahibənin aparılması üçün sorğu anketinin tərtibi;

6.1.3. Vergi ödəyicisi ilə müsahibənin aparılması.

6.2. Elektron auditin məqsədləri üçün aşağıdakı məlumatlardan istifadə edilir:

6.2.1. Vergilər Nazirliyinin məlumat bazasından olan məlumatlar;

6.2.2. Tələbnamə əsasında vergi ödəyicilərindən əldə edilən elektron daşıyıcılarında olan məlumatlar;

6.2.3. Üçüncü şəxslərdən əldə edilən elektron daşıyıcılarında olan məlumatlar;

6.2.4. Mənbəyi bəlli olan digər məlumatlar.

6.3. Yoxlayıcı sənədlərin təqdim edilməsi məqsədilə vergi ödəyicisinə “Vergi yoxlamasının keçirilməsi üçün zəruri olan sənədlərin təqdim edilməsi haqqında Tələbnamə” göndərməlidir.

6.4. Hər bir vergi ödəyicisinin spesifik xüsusiyyətlərindən və vergi ödəyicilərinin fəaliyyət sahələrindən asılı olaraq aşağıdakı elektron sənədlər alınmalıdır:

6.4.1. Ümumi balans, baş kitab və ayrı-ayrı hesablar üzrə qalıq dövriyyə cədvəli;

6.4.2. Mənfəət (gəlir) və zərər hesabatı cədvəli;

6.4.3. Satış əməliyyatları cədvəli (alıcılar üzrə açıqlama ilə);

6.4.4. Bank üçün kredit hesabları üzrə əməliyyatlar və müştərilər barədə cədvəl;

6.4.5. Alış əməliyyatları cədvəli (satıcılar üzrə açıqlama ilə);

6.4.6. Bank üçün depozit, cari hesablar üzrə əməliyyatlar və müştərilər barədə məlumat cədvəli;

6.4.7. Bank əməliyyatları cədvəli (aylar üzrə bank hesabı üzrə dövriyyələrin və qalıqların açıqlanması ilə);

6.4.8. Anbar əməliyyatları cədvəli (hər ayın əvvəlinə və sonuna mal qalıqlarının açıqlaması ilə);

6.4.9. Nağd (kassa) əməliyyatların hərəkəti cədvəli (aylar üzrə nağd dövriyyələrin və ödənişlərin açıqlaması ilə);

6.4.10. İşçilərin əmək haqları və digər gəlirlər barədə cədvəl;

6.4.11. Əsas vəsaitlərin hərəkəti barədə cədvəl (aylar üzrə əsas vəsaitlərin hərəkəti göstərilməklə);

6.4.12. Debitorlar və kreditorlar barədə məlumat cədvəli;

6.4.13. Vergilərin hesablanması üçün zəruri olan digər sənədlər.

6.5. Yoxlayıcı vergi ödəyicisinin elektron daşıyıcılarında olan məlumatlarını əldə edir, xüsusi proqram təminatından istifadə edərək məlumatların uyğunluğunu və vergidən yayınma risklərini təhlil edir.

6.6. Elektron audit zamanı zərurət yarandığı halda vergi orqanının qərarı əsasında sənədlər və nümunə kimi əşyalar götürülə bilər.

6.7. Yoxlayıcı ilkin sənədlər əsasında hesabatların nə dərəcədə düzgün tərtib olunduğunu yoxlamalıdır. Yoxlayıcı vergi ödəyicisində ikili mühasibatlığın aparıldığını, ilkin sənədlərin reallıqda baş verənləri əks etdirməsini və bu məlumatların hesabatlarda nə dərəcədə düzgün əks olunduğunu aşkara çıxarılmalıdır.

## 7. Elektron auditin nəticələrinin rəsmiləşdirilməsi

7.1. Elektron auditin nəticələrinin rəsmiləşdirilməsi Vergi Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

7.2. Elektron auditin nəticələrinə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır və vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə qərar çıxarılır.